https://doi.org/10.59849/3006-1342.2025.1.95
UOT 94

*Habil Nadir oğlu İsmayılov*
*dissertant*
*Gəncə Dövlət Universiteti, H.Əliyev pr. 429*
*E-mail: habil.ismayilov.1985@mail.ru*

# İRƏVAN QUBERNİYASINDA ERMƏNİLƏRİN MƏSKUNLAŞDIRILMA PROSESİ VƏ SOSİAL - DEMOQRAFİK VƏZİYYƏTİN DƏYİŞMƏSİ TARİXİNDƏN

*1828-ci il Türkmənçay sazişinin 16 maddəsi İrəvan quberniyasında ermənilərin məskunlaşdırılma prosesi üçün hüquqi baza rolunu oynadı. İşğaldan sonra İrəvan quberniyasının qəzaları üzrə əhalinin artımına və etnik tərkibinə nəzər yetirdikdə, xaricdən köçürülən ermənilər hesabına ermənilərin sayında kəskin artım olduğunu görmək mümkündür. İrəvan şəhərində əhalinin artımına və milli-etnik tərkibinə baxdığımızda görürük ki, köçürmədən sonra İrəvan şəhərinin əhalisi 9700 nəfərdən 11463 nəfərə qədər artdı ki, nətəcədə şəhərdə azərbaycanlı əhalinin sayı 75,6 %-dən 64 %-ə endi, ermənilərin sayı isə 24,4 %-dən 36 %-ə qalxmışdı.*

*Açar sözlər*: İrəvan, Naxçıvan, Qarabağ, Türkmənçay müqaviləsi, ermənilərin köçürülməsi

## *Giriş*

Bildiyimiz kimi, İrəvan və Naxçıvan bölgəsində “Erməni vilayəti” yaradıldıqdan sonra bir müddət mahal və kəndlərin idarə sistemi rus işğalına qədərki dövrdə olduğu kimi saxlanıldı. Hələ də yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdilər. Vilayətin vergi sistemində isə dəyişikliklər edilmişdi .

İrəvan əyalətinin 15, Naxçıvan əyalətinin 5, Ordubad dairəsinin 5 mahalı var idi. Vilayətdə 752 kənd var idi. Bunlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52 kənd isə Ordubad dairəsində idi.

Əsas hissə. Məlum olduğu kimi, 1828-ci il Türkmançay sazişinin 16 maddəsi İrəvan quberniyasında ermənilərin məskunlaşdırılma prosesi üçün hüquqi baza rolunu oynadı. On beşinci maddə ilə ermənilərin köçürülməsi (müqavilədə ermənilərin adı konkret çəkilməsə də onlar nəzərdə tutulmuşdur) həyata keçirildi. Qriboyedov yazırdı ki, müqavilə onlara (ermənilərə) bunun üçün tam hüquq verirdi. Ermənilərin Şimali Azərbaycana, xüsusilə İrəvana, Naxçıvana və Qarabağa köçürülməsi geniş vüsət aldı [4, s. 85-86]. Qeyd edək ki, çar Rusiyasının Azərbaycanı işğalı ərəfəsində İrəvan xanlığının xristian əhalisinin ümumi sayı müsəlman əhalinin sayından nəzərəçarpacaq dərəcədə aza idi. İ.Şopen qeyd edirdi ki, rus işğalı ərəfəsində İrəvan xanlığında 49 min 875 nəfər müsəlman-türk, 324 nəfər kürd, 20 min 73 nəfər isə erməni yaşayırdı [1, s. 77].

İ.Şopenin məlumatları üzrə əldə edilən rəqəmlər Rusiya işğalı ərəfəsində İrəvan və Naxçıvan bölgəsi əhalisinin sayını müəyyən etməklə bərabər, sonrakı dövrdə vəziyyəti izləmək üçün baza rolunu oynayır. İ.Şopenin məlumatına görə, Rusiya işğalının ilk illərində İrəvan və Naxçıvan əyalətlərinin, Ordubad dairəsinin əhalisi aşağıdakı kimi idi: İrəvan əyaləti üzrə, 20.927 ailə və yaxud 115 min 155 nəfər, Naxçıvan əyaləti üzrə, 6538 ailə və yaxud 30.507 nəfər, Ordubad dairəsi üzrə, 2.325 ailə və yaxud 10.975 ailə [13, s. 638]. Eyni

zamanda Naxçıvan vilayətində köçmə əhali (ermənilər) də (1.411 ailə və ya 7.813 nəfər, onlardan 4.063 kişi, 3748 qadın) var idi.

Umumiyyətlə, Çar Rusiyasının işğalından əvvəl, İrəvan şəhərində 7331 nəfər (1807 ailə) azərbaycanlı-türk, (75,6 %), 2369 nəfər (567 ailə) erməni (24,4%), ümumilikdə İrəvan xanlığı ərazisində isə 49875 nəfər (9196 ailə) azərbaycanlı, 20073 nəfər (3498 ailə) erməni yaşayırdı. Ermənilərin Qacarlar dövləti və Osmanlı imperiyasından köçürülməsindən sonra "Erməni vilayəti" ərazisində (İrəvan və Naxçıvan xanlıqları) 81749 nəfər (16078 ailə) müsəlman, 25151 nəfər (4428 ailə) erməni və 324 nəfər (67 ailə) yezdi kürdü yaşayırdı. Beləliklə, ermənilərin köçürmə prosesindən əvvəl bölgənin 107224 nəfər ümumi əhalisinin 76,24 %-ni azərbaycanlılar, 23,45 %-ni ermənilər təşkil edirdi [2, s. 112].

Rusiya işğalından sonra Qacarlar dövləti və Osmanlı imperiyasından Şimali Azərbaycana köçürülən ermənilər bölgənin demoqrafik vəziyyətini köklü şəkildə dəyişdi. Rəsmi statistik rəqəmlərə görə, Qacar dövlətindən Cənubi Qafqaza köçürülən 8249 erməni ailəsindən 6946 ailə və yaxud 35560 nəfəri "Erməni vilayəti"ndə məskunlaşdırıldı. Bu əhalinin 4559 ailə (23.568 nəfər) İrəvan əyalətində, 2137 ailə (10.652 nəfər) Naxçıvan əyalətində, 250 ailə (1.340 nəfər) Ordubad dairəsində yerləşdirilmişdi [13, s. 635-642]. Eyni zamanda Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən 14044 ailə və yaxud 90.000 nəfər olan ermənilərdən 3682 ailə və yaxud 21666 nəfər "Erməni vilayəti"ndə məskunlaşdırılmışdı. Köçürülən 3674 ailə və yaxud 21639 nəfər İrəvan əyalətində, 8 ailə və yaxud 27 nəfər isə Naxçıvan əyalətində yerləşdirildi [13, s. 635-642].

İrəvan quberniyasının əhalisi ilə bağlı ilkin dəqiq məlumatlar 1850-ci illərə aiddir. Rəsmi məlumatlara görə bu dövrdə İrəvan quberniyasının ümumi əhalisi 240 min nəfər ətrafında olmuşdur. Bunun 57.609 nəfəri Naxçıvan bölgəsinin, 182 min 391 nəfəri isə İrəvan bölgəsinin payına düşür. [5, s. 188].

İşğaldan sonra İrəvan quberniyasının qəzaları üzrə əhalinin artımına və etnik tərkibinə nəzər yetirdikdə, xaricdən köçürülən ermənilər hesabına ermənilərin sayında kəskin artım olduğunu görmək mümkündür. İrəvan şəhərində əhalinin artımına və milli-etnik tərkibinə baxdığımızda görürük ki, köçürmədən sonra İrəvan şəhərinin əhalisi 9700 nəfərdən 11463 nəfərə qədər artdı ki, nətəcədə şəhərdə azərbaycanlı əhalinin sayı 75,6 %-dən 64 %-ə endi, ermənilərin sayı isə 24,4 %-dən 36 %-ə qalxmışdı [2, s. 117]. "Qafqaz təqvimi"nin 1852-ci il üçün məlumatına görə, İrəvan şəhərində 2606 ailə (12603 nəfər) qeydə alınmışdı. Etnik tərkibinə görə, İrəvan şəhərində yaşayan 12603 nəfər əhalinin 51,47 %-ni azərbaycanlılar (6488 nəfər), 48,52 %-ni (6115 nəfər) isə ermənilər təşkil edirdi [6, s. 438-442]. Rəsmi məlumatları nəzərə alsaq, 1831-ci ildə İrəvan şəhərində azərbaycanlıların etnik üstünlüyü 64 % idisə, 1852-ci ildə bu rəqəm 51,47 %-ə enmişdir. Eyni zamanda etnik ermənilərin sayı isə ənənəvi olaraq 36,1 %-dən 48,43 %-ə qalxmışdı.

"Qafqaz təqvimi"nin 1852-ci il üçün məlumatına görə, İrəvan şəhərində 2606 ailə (12603 nəfər) qeydə alınmışdı. Etnik tərkibinə görə, İrəvan şəhərində yaşayan 12603 nəfər əhalinin 51,47 %-ni azərbaycanlılar (6488 nəfər), 48,52 %-ni (6115 nəfər) isə ermənilər təşkil edirdi .

Rəsmi məlumatları nəzərə alsaq, 1831-ci ildə İrəvan şəhərində azərbaycanlıların etnik üstünlüyü 64 % idisə, 1852-ci ildə bu rəqəm 51,47 %-ə enmişdir. Eyni zamanda etnik ermənilərin sayı isə ənənəvi olaraq 36,1 %-dən 48,43 %-ə qalxmışdı.

1873-cü ildə İrəvan şəhərində azərbaycanlıların sayı 5805 (49,34 %), ermənilərin sayı 5959 (50,65%), 1886-cı ildə müvafiq olaraq 7228 və 7142, 1897-ci ildə 12516 və 12529 olmuşdu. Statistik məlumatlardan göründüyü kimi, artıq XIX əsrin 70-ci illərindən etibarən İrəvan şəhərində ermənilər azərbaycanlıları sayca üstələmişlər. Sonrakı illərdə də bu tendensiya davam etmişdi [2, s. 118].

1886-cı il siyahıyaalmasında əks olunan məlumatlara görə, İrəvan quberniyasının əhalisinin ümumi sayı 667.464 nəfər idi ki, bunun da 359.350 nəfəri kişilər, 308.114 nəfəri isə qadınlardan ibarət idi. İrəvan quberniyasındakı 5 şəhərin - İrəvan, Yeni Bəyazid, Aleksandropol, Naxçıvan, Ordubadın ümumi əhalisi 55.368 nəfər təşkil edirdi. Quberniya şəhərləri üzrə əhalinin say dinamikası bu şəkildə idi: İrəvan – 14.555 nəfər, Yeni Bəyazid - 7120 nəfər, Aleksandropol - 22670 nəfər, Naxçıvan – 6911 nəfər, Ordubad – 4112 nəfər [7, s. 146]. Bu dövrdə əhalinin 612.096 nəfəri (91,7 %) quberniyanın qəzalarında yaşayırdı. İrəvan qəzasında 98.438 nəfər, Naxçıvan qəzasında 76.310 nəfər, Yeni Bəyazid qəzasında 93.337 nəfər, Eçmiədzin qəzasında 100.799 nəfər, Aleksandropol qəzasında 111.909 nəfər, Sürməli qəzasında 69.724 nəfər, Şərur-Dərələyəz qəzasında 61.579 nəfər əhali qeydə alınmışdır [7, s. 146].

XIX əsrin sonlarında İrəvan quberniyası əhalisinin etnik tərkibinə görə, 56,03 % ermənilər, 38,6 % azərbaycanlılar, 5,43 % kürdlər, həmçinin rus, yunan, aysor, yəhudi və digər millətlərdən ibarət idi [8, s. 44-45].

1897-ci il əhali siyahıyaalmasına görə, İrəvan qəzasının əhalisi (İrəvan şəhəri daxil) 150 min 879 nəfər, Eçmiədzin qəzasının əhalisinin ümumi sayı 124.237 nəfər, Sürməli qəzasının əhalisi 89.055 nəfər, Şərur-Dərələyəz qəzasının əhalisi 76 min 538 nəfər, Naxçıvan qəzasının əhalisi 100 min 771 nəfər (bunun 8.790 nəfər Naxçıvan şəhəri və 4.611 nəfəri Ordubad şəhərinin payına düşürdü), Aleksandropol qəzası 165 min 503 nəfər, Yeni Bəyazıd qəzası 122 min 573 nəfər idi [12, s. 1-2]. 1914-cü ilin rəsmi məlumatına görə, İrəvan qəzasının əhalisinin 8.9258 nəfəri tatar-türk şiə, 1.031 nəfər tatar-türk sünni, 2.379 nəfəri rus pravaslav, 175 nəfəri polyak, 219 nəfəri kartvel, 7.3694 erməni-qriqorian, 37 nəfəri erməni-pravoslav, 13 nəfəri dağlı, 6.369 nəfəri kürd, 3.004 nəfəri asiyalı-xristian, , 63 nəfəri qaraçı, 349 nəfəri isə digər xalqların nümayəndələr idi. [10, s. 254-257].

"Qafqaz təqvimi"nin 1909-cu il məlumatlarına görə, İrəvan qəzasında 65.954 nəfər tatar-türk, 46.964 nəfər erməni, 5.789 nəfər kürd, 1.779 nəfər digər millətlərin nümayəndələri yaşayırdı.

XIX əsrin sonunda İrəvan quberniyasının Eçmiədzin qəzasında dini tərkibinə görə, 45.139 nəfər müsəlman, 77.089 nəfər erməni-qriqorian və erməni-katolik, 610 nəfər pravoslav, 251 nəfər protestant, 31 nəfər yəhudi və 1104 nəfər digər dini mənsubiyyətli şəxs yaşayırdı [12, s. 3].

Rusiya imperiyasında keçirilən ilk siyahıyaalınmaya görə, XIX əsrin sonunda İrəvan quberniyasının Sürməli qəzasında 41.417 nəfər tatar-türk, 1.361 nəfər rus, 27.075 nəfər erməni, 19.099 nəfər kürd, 6 nəfər yəhudi, 47 nəfər isə digər xalqların nümayəndələri yaşayırdı [12, s. 3]. Dini tərkibinə görə, Sürməli qəzasında müsəlmanlar 52.640 nəfər, pravoslavlar 1.505 nəfər, roma-katoliklər 31 nəfər, protestantlar 14 nəfər, yəhudilər 9 nəfər, erməni qriqoryan və erməni katoliklər 26.945 nəfər, digərləri 7.911 nəfər idi [12, s. 1].

1909-cu il statistik məlumatlarına görə, Şərur-Dərələyəz qəzası əhalisinin 55.575 nəfəri tatar-türk, 23.241 nəfər erməni, 805 nəfər kürd, 557 nəfər aysor idi [9, s. 519] 1914-cü il məlumatlarına görə, Sürməli qəzasının əhalisi 99.017 nəfər idi. Qəza əhalisinin 42.662 nəfəri tatar-şiə, 1.416 nəfəri tatar-sünni, 350 nəfəri rus, 31 min 137 nəfəri erməni qiriqoryan, 99 nəfəri erməni-pravoslav, 23.270 nəfər kürd, 66 nəfəri isə yəhudi idi [10, s. 254-257].

1914-cü ilin rəsmi məlumatına görə, İrəvan qəzasının əhalisinin 8.9258 nəfəri tatar-türk şiə, 1.031 nəfər tatar-türk sünni, 2.379 nəfəri rus provaslav, 175 nəfəri polyak, 219 nəfəri kartvel, 7.3694 erməni-qriqorian, 37 nəfəri erməni-pravoslav, 13 nəfəri dağlı, 6.369 nəfəri kürd, 3.004 nəfəri asiyalı-xristian, 63 nəfəri qaraçı, 349 nəfəri isə digər xalqların nümayəndələr idi.

1916-cı il məlumatına isə qeyd edilir ki, Şərur- Dərələyəz qəzasının ümumi əhalisi 90250 nəfər idi. Qəzada 57.982 nəfər tatar-şiə, 511 nəfər tatar-sünni, 122 nəfər rus, 29.165 nəfər erməni-qriqorian, 1861 nəfər kürd, 598 asiyalı-xristian yaşayırdı [11, s. 218-221].

1916-cı il statistik məlumatlarına görə, Eçmiədzin qəzasının ümumi əhalisi 167.786 nəfər idi. Bunlardan 41.310 nəfəri tatar-şiə, 114.707 nəfər erməni-qriqorian, 41 nəfəri rus, 241 nəfəri erməni-pravoslav, 9.653 nəfəri kürd-müsəlman, 1.118 nəfəri kürd-yezidi, 186 nəfəri asiyalı-xristian, 410 nəfəri qaraçı, 42 nəfəri yəhudi idi.

Dini tərkibinə görə, Sürməli qəzasında müsəlmanlar 52.640 nəfər, pravoslavlar 1.505 nəfər, roma-katoliklər 31 nəfər, protestantlar 14 nəfər, yəhudilər 9 nəfər, erməni qriqoryan və erməni katoliklər 26.945 nəfər, digərləri 7.911 nəfər idi.

1897-ci il siyahıyaalınmasına görə, Naxçıvan qəzasında tatar-türk əhali 64.151 nəfər, ruslar 1.014 nəfər, ermənilər 34.672 nəfər, kürdlər 639 nəfər, yəhudilər 4 nəfər, aysorlar 9 nəfər, digər xalqların nümayəndələri isə 282 nəfər idi. Siyahıyaalınmaya gprə, bu dövrdə Naxçıvan şəhərində isə tatar-türklər 6.161 nəfər, ruslar 232 nəfər, ermənilər 2.263 nəfər, kürdlər 2 nəfər, digər xalqların nümayəndələri isə 132 nəfər idi. Ordubad şəhərində isə tatar-türklər 4.088 nəfər, ruslar 179 nəfər, ermənilər 284 nəfər, digər xalqların nümayəndələri 128 nəfər idi [12, s. 3]. Naxçıvan qəzasında dini tərkibinə görə, müsəlmanlar 64.825 nəfər, pravoslavlar 881 nəfər, staroobriadniklər 170 nəfər, roma-katoliklər 171 nəfər, yəhudilər 36 nəfər, erməni-qriqorian və erməni-katoliklər 34.675 nəfər idi. [12, s. 3].

Qeyd edildiyi kimi, Naxçıvan qəzasının yerli əhalisini əsasən azərbaycanlılar (türklər) təşkil edirdi. Naxçıvan bölgəsi əhalisinin tərkibindəki ermənilər gəlmə idi. Gəlmə erməniləri də iki yerə bölmək olar:

1) Rusiya işğalınadək bu bölgəyə gələnlər (rus qafqazşünaslığında onlar səhvən «yerlilər», yaxud «köhnədən yaşayanlar» adlandırılır);

2) işğal zamanı və sonra gələnlər. Adətən müəlliflər Naxçıvan bölgəsi əhalisində ermənilərin sayından bəhs edərkən Naxçıvan vilayəti üzrə məlumata müraciət edirlər. [3, s. 72]. İ.Şopenə görə Naxçıvan əyaləti üzrə Rusiya işğalınadək gəlmə ermənilər 530 ailə (2.690 nəfər), Ordubad dairəsi üzrə 400 ailə (2.388 nəfər) idi. Müqayisə üçün qeyd edək ki, bu dövrdə azərbaycanlılar müvafiq olaraq 3.863 ailə (17.138 nəfər) və 1.675 (7.247 nəfər) təşkil etmişdi. Yalnız köçürmə hesabına çar hökuməti əhalinin etnik tərkibində xeyli dəyişiklik yaratmışdı. Gəlmə ermənilərin sayı Naxçıvan əyalətində 2.145 ailə (10.589 nəfər), Ordubad dairəsində isə 250 ailə (1.340 nəfər) olmuşdu. Beləliklə, Rusiya işğalından sonra həmin dövr üzrə Naxçıvanda 8.863 ailə qeydə alınmışdı ki, onlardan 5.538 ailə (62,49 %) azərbaycanlı, 3.325 ailə (37,51 %) erməni idi. 20 Naxçıvan bölgəsinin müasir sərhədləri nəzərə alınmaqla hesablama aparsaq aydın olar ki, azərbaycanlılar bütün ailələrin 66,5 %-ni, ermənilər isə yalnız 33,5 %-ni təşkil edib. 1917-ci ildə isə Naxçıvan bölgəsində (əhalinin ümumi sayı 170.142 nəfər qəbul edilsə) azərbaycanlıların sayı 115.742 nəfər (68 %), qalanları isə ermənilər və qismən kürdlər olmuşdu. 21 Çarizmin rus kəndlilərini köçürmə siyasəti bütün Azərbaycanı olduğu kimi Naxçıvan bölgəsini də əhatə etmişdi. Naxçıvan qəzasında Karmalinovka (Biçənək) adlı rus kəndi salınmışdı. Bu kənddə XIX əsrin 30-80-cı illərdə 164, XIX əsrin 80-cı illərinin ortaları – 1904-cü ildə 280, 1905-1917-ci illər arasında 310 nəfər hər iki cinsdən əhali yaşamışdı.

N.N.Şavrov XIX əsrin sonu–XX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqaza növbəti kütləvi köç prosesi ilə bağlı yazırdı: *"1897-ci ildə gəlmə ermənilər artıq 1896-cı ildə olduğu qədər 10000 deyil, 90.000 nəfərə çatırdı. Onların buradan çıxarılması haqqında knyaz Qolitsının apardığı danışıqlar nəticə vermədi. O vaxtdan bəri ermənilərin Kiçik Asiyadan axını davam etməkdədir. Bu köçürmələr nəticəsində hazırda Cənubi Qafqazda yaşayan 1,3 milyon ermənininin 1 milyondan çoxu yerli əhali deyildir, onları biz bura köçürüb gətirmişik.*

1897-ci il siyahıya alınmasına görə, Yeni Bəyazid qəzasında 122.573 nəfər ümumi əhalinin 34726 nəfəri tatar-türk, 2.716 nəfəri rus, 81.285 nəfəri erməni, 2.995 nəfəri kürd, 31 nəfəri yəhudi, 820 nəfəri digərləri idi [12, s. 3]. Dini tərkibinə görə isə qəza əhalisinin say nisbətində müsəlmanlar 38122 nəfər, pravoslavlar 349 nəfər, staroobriadniklər 2.790 nəfər, roma-katoliklər 19 nəfər, protestantlar 7 nəfər, yəhudilər 77 nəfər, erməni-qriqorian və erməni-katoliklər 81.206 nəfər, digər xalqların nümayəndələri isə 3 nəfər idi [12, s. 3].

Ümumiyyətlə, çar Rusiyası Türkmançay müqaviləsindən başlayaraq XX əsrin əvvəllərinə qədər məqsədyönlü şəkildə və ardıcıl olaraq İrəvan bölgəsində yaşayan əhalinin milli-etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirmək siyasəti həyata keçirmişdir. İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edildikdən sonra bölgə əhalisinin etnik tərkibində azərbaycanlıların sayı ikiqat azalmış, ermənilərin sayı isə 2,5 dəfə artmışdır. Uzun bir dövr ərzində ermənilərin planlı şəkildə köçürülərək İrəvan və Naxçıvan ərazilərində yerləşdirilməsi, onların çar hakimiyyəti tərəfindən iqtisadi, siyasi, inzibati və digər sahələrdə himayə edilməsi, bölgənin yerli sakinləri olan azərbaycanlılara qarşı etnik və dini diskriminasiya siyasətinə baxmayaraq, bölgədə azərbaycanlı əhalinin xüsusi çəkisi həmişə yüksək olmuşdur.

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*

1. İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009.
2. Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri)". Bakı, Turxan, 2017, 400 s.
3. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
4. Şükürov K. Türkmənçay-1828. Tarixi xronika. Bakı, 2006, 188 s.

*Rus dilində*

5. Военно-статистическое обозрение Российской Империи. Эриванская губерния. Т. 16, ч. 6: /издаваемое по Высочайшему повелению при 1-м отделении Департамента Генерального Штаба-Санкт-Петербург: в типографии Департамента Генерального Штаба, /по рекогносцировкам и материалам, собранным на месте, составлял Ген. штаба кап. Услар, 1855. 300 с.
6. Кавказский календарь на 1852 год. Тифлис: 1851, Отдел. Третие, 724 с.
7. Кавказский календарь на 1889 год. Тифлис: 1888, Отдель I, 530 с.
8. Кавказский календарь на 1899 год. Тифлис: 1898, III Отдель, 785 с.
9. Кавказский календарь на 1910 г. Тифлисъ: 1909. Ч. 1, Отдел 4,...
10. Кавказский календарь на 1915 год: Пребывание его Императорскаго Величества Государя Императора на Кавказе в 1914 г.; Карта Кавказскаго края в 40 верстн. масштаб / Под ред. А.А.Эльзенгера, Н.П.Стельмащука; Издан по распоряжению Наместника его Императорскаго Величества на Кавказе. Тифлис: 1914. 896 с.
11. Кавказский календарь на 1917 год: С прил. Карты Кавказа, Азиатской Турции и Персии /Под ред. Н.П.Стельмащука; Издан по распоряжению Наместника его Императорскаго Величества на Кавказе. Тифлис: 1916. 1609 с.
12. Первая всеобшая перепись населения Российской империи. LXXI. Эриванская губерния. СПб., 1905, 1вв. л. XXIII, 185 с.
13. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб.: Типография Императорской Академии наук, 1852, 1231 с.

УДК 94

*Хабил Надир оглу Исмайылов*
*Гянджинский Государственный Университет*

ИСТОРИЯ ПРОЦЕССА ПЕРЕСЕЛЕНИЯ АРМЯН В ИРЕВАНСКУЮ ГУБЕРНИЮ И ИЗМЕНЕНИЕ СОЦИАЛЬНО-ДЕМОГРАФИЧЕСКОЙ СИТУАЦИИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Иреван, Нахчыван, Карабах, Туркменчайский договор, переселение армян

В 1828 году 16 статья Туркменчайского договора сыграла юридическую роль в расселении армян в районе Иревана. Оглядываясь на рост и этническую принадлежность республики Иревана, мы можем наблюдать резкое увеличение числа армян, мигрировавших из-за рубежа. Если посмотреть на численность населения и этническую принадлежность в городе Иравана, то мы видим, что после переселения население Иревана увеличилось с 9 700 до 11463 человек в результате чего,число азербайджанцев сократилось с 75,6 процентов до 64 процентов, а число армян увеличилось с 24,4 процента до 36 процентов.

UDC 94

*Habil Nadir İsmailov*
*Ganja State University*

THE SETTLEMENT PROCESS HISTORY OF ARMENIANS IN IREVAN PROVINCE AND CHANGES IN THE SOCIO-DEMOGRAPHIC SITUATION
*SUMMARY*

*Key words:* Irevan, Nakhchivan, Karabakh, Turkmenchay Treaty, resettlement of Armenians

In 1828 article 16 of the Turkmenchay treaty played a legal role in the settlement of Armenians in the İrevan area. Looking back at the growth and ethnicity of the republic of İrevan, we can observe a sharp increase in the number of armenians who migrated from abroad. If we look at the population and ethnicity in the city of Iravan, we see that after the resettlement, the population of Irevan increased from 9,700 to 11,463 people, consequently, which it decreased by 75.6 percent to 64 percent, and the number of armenians increased from 24.4 percent to 36 percent.

***Daxil oldu: 06.03.2025-ci il***